https://doi.org/10.59849/3006-1342.2025.3.138
UOT 94 (479.24)

*Nərmin Xəyyam qızı Alıyeva*
*AMEA Gəncə Bölməsi*
*Kiçik elmi işçi*
*E-mail: narminaliyeva573@gmail.com*
*https://orcid.org/0009-0003-4508-7306*

# AZƏRBAYCANIN DEKORATİV-TƏTBİQİ İNCƏSƏNƏTİNDƏ GƏNCƏNİN ROLU: BƏDİİ ŞÜŞƏ SƏNƏTİ KONTEKSTİNDƏ

*Məqalədə Azərbaycanda, xüsusilə Gəncədə bədii şüşə sənətinin tarixi inkişafı və mədəni əhəmiyyəti araşdırılır. Arxeoloji qazıntılar göstərir ki, Gəncə və onun ətraf ərazilərində, Mingəçevir, Şamaxı və digər bölgələrdə IV–VII əsrlərdən başlayaraq şüşə qablar, zinət əşyaları və güzgülər yüksək bədii səviyyədə hazırlanıb. Qədim Qafqaz Albaniyası dövründən etibarən bu sənət geniş yayılmış, funksional əşyalarla yanaşı estetik baxımdan zəngin nümunələr də yaradılmışdır. Şüşə istehsalında üfürmə və tökmə texnologiyalarından istifadə olunmuş, qablar müxtəlif rəng və formalarda hazırlanmışdır. Tapılan muncuqlar və bilərziklər sənətkarların yaradıcılıq gücünü və texniki bacarığını sübut edir. XX əsrin ortalarında Gəncə və Bakı zavodlarında sənətkarlar tərəfindən yeni şüşə nümunələri hazırlanmış, bu sahənin inkişafı davam etdirilmişdir. Bədii şüşə sənəti Azərbaycanın dekorativ-tətbiqi sənətində mühüm yer tutur və bu gün də müəyyən dərəcədə yaşadılmaqdadır.*

*Açar sözlər:* Gəncə, bədii şüşə, dekorativ-tətbiqi sənət, arxeoloji tədqiqatlar, bəzək əşyaları

Dekorativ-tətbiqi sənət, həm estetik gözəllik daşıyan, həm də gündəlik həyatda funksional məqsədlərə xidmət edən sənət növüdür. Bu sənət forması əsrlər boyu müxtəlif xalqların, o cümlədən Azərbaycan xalqının mədəni irsində mühüm yer tutmuşdur. Dekorativ-tətbiqi sənətin əsas xüsusiyyəti ondan ibarətdir ki, o, yalnız bədii zövqü oxşamaqla kifayətlənmir, eyni zamanda insanların gündəlik həyatında istifadə edilən əşyaların hazırlanmasında tətbiq olunur.

Azərbaycan dekorativ-tətbiqi incəsənəti zəngin və qədim ənənələrə malikdir. Xalqın yaşayış tərzi, dini dünyagörüşü və məişət mədəniyyəti bu sənət növünün formalaşmasında əsas rol oynamışdır. Dekorativ-tətbiqi incəsənət sahəsində Gəncənin rolu əsasən yerli ustaların yaratdıqları məişət əşyalarının estetik və texniki keyfiyyəti ilə müəyyən olunur. Azərbaycanın qədim şəhərlərindən olan Gəncə tarixən təkcə siyasi və iqtisadi mərkəz deyil, həm də zəngin sənətkarlıq ənənələri ilə seçilən mədəniyyət ocağı olmuşdur. Şəhərin əlverişli coğrafi mövqeyi, ipək və ticarət yolları üzərində yerləşməsi burada müxtəlif sənət növlərinin inkişafına münbit şərait yaratmışdır. Orta əsrlər dövründə Gəncədə zərgərlik, misgərlik, toxuculuq, dulusçuluq və xüsusilə də şüşəçilik sənətləri geniş yayılmışdı. Arxeoloji qazıntılar nəticəsində aşkarlanmış məişət qabları, zinət əşyaları və şüşə məmulatları göstərir ki, bu şəhərdə sənətkarlar yalnız funksional deyil, eyni zamanda yüksək bədii dəyərə malik əşyalar hazırlamışlar. Gəncənin sənətkarlıq ənənələri, yerli üslub və texnikaların formalaşmasında əhəmiyyətli yer tutur və bu baxımdan şəhər, Azərbaycanın dekorativ-tətbiqi sənət tarixində xüsusi mövqe tutur.

Qədim dövrlərdə şüşənin istehsalı, xüsusən də bəzək əşyalarının və qabların istehsalı, mədəniyyətlərarası əlaqələrin və təcrübə mübadiləsinin bir nəticəsi kimi görünür. Heç də

təsadüfi deyildir ki, şüşənin əldə edilməsi bəşər tarixinin inkişafında ən böyük kəşflərdən biri hesab edilir. Bu kəşfin vasitəsilə biz tarixi inkişafın yeni dövrü-Jak De Morqanın dili ilə desək, "şüşə vazalar dövrü" ilə tanış oluruq [8, s. 7]. Şüşə sənətinin inkişafı həm də insanların gündəlik həyatı ilə sıx bağlı olub – şüşə qabların, piyalələrin və vazaların həyatın müxtəlif sahələrində, dini mərasimlərdə, gündəlik istifadədə, hədiyyə olaraq verilməsi kimi məqsədlərlə istifadəsi olmuşdur.

Gəncədə bədii şüşə sənətinin formalaşması və inkişafı haqqında məlumatlar əsasən arxeoloji tapıntılara əsaslanır. İlk orta əsrlərin sonlarından başlayaraq bu şəhərdə şüşə istehsalının mövcud olduğu, müxtəlif formalı və rəngli şüşə qabların hazırlanıb istifadə edildiyi məlumdur. Gəncədə şüşədən hazırlanan əşyalar dekorativ sənətin ən maraqlı və yüksək qiymətləndirilən formalarından hesab olunur.

Gəncəbasar bölgəsində, o cümlədən Azərbaycanın müxtəlif bölgələrində şüşə sənəti, xüsusən də tapılmış şüşə əşyalar, ölkənin qədim mədəniyyətinin və sənətkarlarının yüksək bədii zövqünün və texnoloji inkişafının əlamətləridir. Eyni zamanda bu tapıntılar, şüşə sənətinin zamanla necə inkişaf etdiyini, yerli sənətkarların istehsal etdikləri bədii məmulatların keyfiyyətini və müxtəlifliyini göstərir.

Ümumən Qafqaz Albaniyası ərazisində aparılan arxeoloji tədqiqat işləri zamanı başqa sənət nümunələri ilə birlikdə əldə edilən şüşə məmulatı ölkənin tarixi və mədəniyyətinə dair bir sıra məsələlərin öyrənilməsində böyük əhəmiyyət kəsb edir. Belə ki, Gəncə və ətraf ərazilərdə, Mingəçevirdə, İsmayıllı və Şamaxıda tapılan bədii şüşə nümunələri onların keyfiyyəti, estetik dəyəri barədə fikir yürütməyə imkan verir və bu nümunələri Qafqaz Albaniyasında inkişaf etmiş sənət sahələrinə aid etmək mümkündür. Şüşə sənəti, alban incəsənətinin inkişafının ikinci mərhələsində - I–VII əsrlərdə - daha da geniş yayılmış və gemmaların, qadın zinət əşyalarının bəzək elementlərinin hazırlanmasında, eləcə də müxtəlif məişət qablarının istehsalında geniş şəkildə tətbiq olunmuşdur.

Arxeoloji tədqiqatlar göstərir ki, IV əsrdən etibarən qədim sənətkarlar müxtəlif bəzək əşyaları və qablar, xüsusən də möhürlər və halqalar hazırlamağa başlamışlar. Şüşə sənətinin inkişafı ilə yanaşı, bu dövrün yerli qablarının, piyalələrin, kuzələrin və qədəhlərin istehsalı da artmışdır. Sənətkarlar, keramikanın bədii xüsusiyyətlərini öz yaradıcılıqlarında tətbiq edərək, şüşə məmulatlarının yeni formalarını və naxışlarını yaratmışlar [1, s. 144-145].

İlk orta əsrlərin sonunda inkişaf etmiş şəhərlərindən biri olan Gəncə haqqında ilk tarixi-arxeoloji tədqiqat İ.M.Cəfərzadə tərəfindən aparılmışdır. O, arxeoloji materiallara əsaslanaraq Gəncədə müxtəlif sənət sahələrinin, o cümlədən şüşə sənətinin inkişaf etdiyini vurğulamışdır [3, s. 80-81]. Bu fikri M.M.Altman da öz tədqiqatında təsdiqləmişdir.

Tədqiqatçılar, yerli şüşə məmulatlarının keyfiyyətinin yüksəlməsi və miqdarının artması nəticəsində, IV əsrdən etibarən xaricdən gətirilən kuzə və vazaların yerini yerli istehsal olunan əşyaların tutduğunu vurğulayırlar. Bu da, şüşə sənətinin daha çox inkişaf etməsi və yerli istehsalın güclənməsi ilə nəticələnmişdir.

Bu dövrün şüşə məmulatları üzərindəki toxuma və qabırğavari naxışlar, həm yerli keramika nümunələrindən, həm də dövrün metallurgiya və toxuculuq sənətlərindən ilham alınaraq hazırlanmışdır. Şüşə qabların müxtəlif ölçülərdə olması isə şüşəbişirən sənətkarların müxtəlif qəliblərdən istifadə etdiklərini və yüksək texnoloji bacarıq nümayiş etdirdiklərini göstərir.

Azərbaycanın, xüsusən də şimal hissəsi olan Qafqaz Albaniyasının ilk orta əsrlər dövrünə aid olan bu şüşə qab nümunələri, arxeoloji qazıntılar nəticəsində tez-tez tapılır. V-VII əsrlərin daş qutu və küp qəbirlərində aşkar edilən bu cür şüşə məmulatları, həmin dövrün mədəniyyətini və yerli sənətkarlığın inkişafını daha yaxşı başa düşməyə kömək edir.

Mingəçevirdən tapılan şüşə güzgü, əvvəllər Avropa intibah dövrünün xüsusiyyəti sayılan bir əşyadır və bu tapıntı, həmin dövrə aid olan düşüncələri yenidən gözdən keçirməyə

səbəb olur. Eramızın V-VIII əsrlərinə aid olduğu müəyyən edilən bu güzgü, yalnız şüşə sənətinin inkişafı ilə bağlı deyil, həm də ilkin orta əsr Azərbaycan memarlığının istifadə etdiyi pəncərə şüşəsi istehsalı haqqında yeni fikirlər yaradır.

Gəncəbasar bölgəsində tapılan əşyaların çoxsaylı olması, oranın zəngin mədəniyyət mərkəzi olması ilə bağlı fikirləri dəstəkləyir. Bu əşyaların V-VII əsrlər dövrünə aid olması, həmin dövrdə yerli sənətin yüksək səviyyədə inkişaf etdiyini və digər mədəniyyətlərlə əlaqələrin olduğunu göstərir. Bu tapıntıların bədii dəyəri, həmçinin yerli sənətkarların yaradıcı təfəkkürünü və texnoloji bacarıqlarını nümayiş etdirir. Şüşə məmulatında toxunma və qabırğavari naxışların olması, bu dövrün sənətində və ya bədii üslubunda xüsusilə yerli təsir və üslubların rolunu göstərir. Eyni zamanda, qədim sənətkarların keramika, metal işləri və toxuculuq kimi digər sənət sahələrindən ilham almaları da maraqlıdır.

Mingəçevirin bu cür arxeoloji tapıntıları, Azərbaycan ərazisinin qədim dövrlərdə sənət və texnologiya baxımından əhəmiyyətli bir mədəniyyət mərkəzi olduğunu göstərir. Bu tapıntılar, həmçinin Orta Şərq və Qafqaz regionlarının Avropa ilə yanaşı, dünya tarixində mühüm bir yer tutduğunu sübut edir [5, s. 18-19].

İlk orta əsrlərin sonlarında Gəncə şəhəri ilə yanaşı Beyləqan, Şamaxı, Qəbələ, Mingəçevir, Naxçıvan və digər şəhərlərində şüşə istehsalının mövcudluğu barədə fikirlər səsləndirilir. Əldə olunmuş arxeoloji materiallar sübut edir ki, orta əsrlərdə Azərbaycan ərazisində şüşə sənəti yüksək inkişaf səviyyəsinə çatmışdı. Bu dövrdə ölkə, çeşidcə zəngin və zərif işlənmiş şüşə məmulatlarının istehsalı ilə tanınırdı və bu sahədə əsas mərkəzlərdən birinə çevrilmişdi. Şüşə istehsalının inkişafı yalnız sənət baxımından deyil, həm də gündəlik həyatın təşkilinə təsir göstərmiş, məişət və mətbəx mədəniyyətinin yüksəlməsinə şərait yaratmışdı. Bu isə özünü süfrə və mətbəx qablarının say və forma baxımından artmasında göstərirdi.

Qazıntılar zamanı əldə olunan materiallar göstərir ki, orta əsr Azərbaycanında şüşə yalnız gündəlik tələbat üçün deyil, həm də zinət əşyalarının hazırlanmasında istifadə olunub. Bu, həmin dövrdə şüşənin həm funksional, həm də bədii dəyərə malik material kimi dəyərləndirildiyini göstərir. Şamaxı və Qəbələ ərazilərində aşkarlanan müxtəlif formalı, naxışlı şüşə muncuqlar və bilərziklər isə bu sahədəki ustalığın və zərgərlikdə şüşədən istifadə ənənəsinin bariz nümunələridir. Bu tapıntılar sübut edir ki, şüşə sənətkarlığı Azərbaycanın estetik və tətbiqi sənət sahələrində də özünəməxsus yer tutub [2, s. 10-11].

Arxeoloji qazıntılar zamanı məlum olmuşdur ki, Gəncə və Mingəçevirin qədim yaşayış məskənlərində də orta əsrlərə aid şüşə bilərziklər mövcud olub. Bu bilərziklər müxtəlif rəng çalarlarında – göy, yaşıl, qəhvəyi, qara, sarı və yaşıl-sarı tonlarda hazırlanıb. Onların bəziləri tam şəffaf olmasa da, zəif işıq buraxma xüsusiyyətinə malikdir. İstehsalında qeyri-şəffaf və yarı şəffaf şüşədən istifadə edilməsi həmin dövrdə şüşə emalı texnikalarının kifayət qədər inkişaf etdiyini göstərir. Bu zinət əşyaları, dövrün zövqünü və estetik baxışını əks etdirən vacib nümunələr kimi qiymətləndirilə bilər [9, s. 57].

Gəncə və onun ətraf ərazilərində arxeoloji qazıntılar zamanı aşkar edilmiş şüşə məmulatlar arasında müxtəlif rəngli muncuqlar — xüsusilə sarı, ağ, yaşıl və qırmızı tonlarda olan nümunələr üstünlük təşkil edir. Bu muncuqlar əsasən şar formalı, silindrik, buğumlu və tilli tipologiyada hazırlanmışdır. Bəzi hallarda tək rəngli şüşə muncuqların səthi əlavə rənglərlə bəzədilmiş, dekorativ elementlərlə zənginləşdirilmişdir. Xüsusi qeyd edilməlidir ki, göz muncuqları arxeoloji materiallar arasında diqqətəlayiq yer tutur; onların üzərində kiçik "göz" motivləri işlənmiş və həmin sahələr rəngli şüşə kütləsi ilə doldurularaq vizual effekt yaradılmışdır [4, s. 83].

Orta əsrlərə aid bu zəngin və özünəməxsus tapıntılar əhalinin gündəlik həyatında şüşə qab-qacağın geniş istifadə olunduğunu, həmçinin ölkədə çoxsaylı istehsal mərkəzlərinin mövcudluğunu göstərən əhəmiyyətli faktlardır. “Xəmsə” miniatürlərində təsvir edilən keramika, şüşə və metal qablar həmin dövrün xalqının sosial həyat tərzini, dini-ideoloji

baxışlarını, inanc və ənənələrini araşdırmaq üçün vacib olmaqla yanaşı, Azərbaycanın orta əsr maddi mədəniyyətinin arxeoloji tədqiqində də dəyərli tarixi və etnoqrafik mənbə rolunu oynayır [6, s. 99].

Şüşə qabların hazırlanmasında iki əsas texniki üsul mövcud idi: tökmə və üfürmə. Tökmə texnologiyası daha qədim olsa da, orta əsrlərdə hər iki üsul geniş şəkildə istifadə olunurdu. Bu, həmin dövrün ustalarının həm ənənəvi, həm də daha müasir texnikaları ustalıqla tətbiq etdiklərini göstərir [7, s. 11-13].

Şüşə məmulatlarının hazırlanmasında əsasən rəngli şüşədən istifadə olunur, rəngsiz şüşədən hazırlanan əşyalara isə məişətdə nisbətən az rast gəlinir. Məsələn, mavi rəngli Şamaxı lampaları, çəhrayı və yaşıl tonlarda Təbriz gülabdanları, açıq qırmızı duzqabılar və qəndqabılar, eləcə də digər məişət əşyaları xalq arasında geniş yayılmış və böyük rəğbət qazanmışdır. Bu cür qablar portağal, nar, gavalı və limon rənglərində hazırlanırdı. Şərbət süzülməsi üçün nəzərdə tutulan armud formalı xüsusi küpələr və qrafinlər isə istisna olaraq ağ və şəffaf şüşədən düzəldilir və onların hazırlanması əsasən Gəncə ustalarının sənətkarlıq nümunəsi sayılırdı.

1950-ci illərin sonları Azərbaycan rəssamlarının bədii şüşə sahəsində yaratdıqları özünəməxsus və dəyərli əsərlərlə yadda qalmışdır. Bu dövrdə əsasən görkəmli dövlət, elm və mədəniyyət xadimlərinə ithaf olunan büllur vazalar, çay, şərab və ətriyyat qabları, habelə müxtəlif servizlər sənətkarlar tərəfindən yaradılmışdır. Xüsusilə rəssam Səkinə Şahsuvarovanın ölkənin müxtəlif şüşə zavodlarında hazırladığı büllur vazalar orijinallığı ilə seçilirdi. Çəhrayı və mavi büllurdan hazırlanmış bu vazalardan biri 1955-ci ildə tanınmış dramaturq Cəfər Cabbarlının, digəri isə 1956-cı ildə dahi bəstəkar Üzeyir Hacıbəylinin xatirəsinə həsr edilmişdi.

Bakı şüşə zavodunun rəssamları da istehsal olunan məmulatların çeşid baxımından zənginləşməsində fəal iştirak edirdilər. 1960-cı illərin əvvəllərində Tofiq Ağababayev və Səkinə Şahsuvarova geniş istifadə üçün nəzərdə tutulan müxtəlif şüşə nümunələrini ərsəyə gətirmişdilər. Onilliyin ikinci yarısında isə rəssam Dilarə İbrahimovanın zavodda fəaliyyətə başlaması ilə respublika və ümumittifaq sərgilərində Azərbaycan bədii şüşə sənətinə aid nümunələr daha tez-tez nümayiş etdirilməyə başlandı. Bu isə ölkədə bu sahənin gələcək inkişafına və sənətkarların yaradıcılıq yüksəlişinə işarə idi.

Daha məhsuldar fəaliyyət göstərən gənc mütəxəssislər əsasən Bakı, Tiflis, Riqa, Daşkənd, Leninqrad və keçmiş SSRİ-nin digər şəhərlərində ali bədii təhsil almış rəssamlar idi. A.Yusifov, D.İbrahimov, A.Əliyev, M.Babayev və digər sənətkarlar tərəfindən yaradılmış servizlər, dəstlər və müxtəlif şüşə əşyaları Azərbaycanın nisbətən yeni hesab olunan dekorativ-tətbiqi sənət sahəsini əhəmiyyətli dərəcədə zənginləşdirmişdir.

Araşdırmalardan belə nəticəyə gələ bilərik ki, bu gün Azərbaycanda şüşə sənəti sənaye miqyasında məhdud şəkildə olsa da, müxtəlif sənətkarlar tərəfindən qədim ənənələrə sadiq qalaraq müxtəlif formalarda yaşadılır. Qeyd olunanlara əsasən, həmin dövrdə Azərbaycanda yaradılan bədii şüşə nümunələri Qərbi Avropadakı analoqlarından daha yüksək səviyyədə idi.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı. " Elm". 2007. 608 s. 24 səh. İllüstrasiya
2. Əfəndi R. Azərbaycan dekorativ tətbiqi sənətləri (orta əsrlər). Bakı, İşıq 1976.190 s.
3. Gəncə (tarixi oçerk). Bakı, Elm, 1994. 152 s.
4. Məmmədov A. Gəncəbasar IV-XIII əsrlərdə (tarixi arxeoloji tədqiqat). Bakı, Elm, 1992. 204 s.
5. Məmmədzadə K.M. Azərbaycanda inşaat sənəti (IV-XVI əsrlər). Elm nəşriyyatı, Bakı 1978. 210 s.

6. Nəcəfov Ş., Fərhadov F. Nizami Gəncəvinin “Xəmsə” Miniatürlərindəki Bədii Keramika, Şüşə Və Metal Qab Nümunələri Tarixi-Arxeoloji Kontekstdə. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı, Dövlət və Din - №03 (74) 2022. 120 s.
7. Nuriyev A.B. Azərbaycan ərazisindən aşkar edilmiş oymalı şüşə piyalələr haqqında. Azərb. SSR EA Tarix İnstitutu aspirantlarının birinci elmi konfransının materialları. Bakı: 1965, s. 11-13.
8. Nuriyev A.B. Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi. Bakı: Elm, 1981, 150 s.
9. Vahidov R.M. Mingəçevir III-VII əsrlərdə. (Arxeoloji qazıntı materialları əsasında). Azərbaycan SSR EA Nəşriyyatı. Bakı, 1961.162 s. kiril əlifbasında.

УДК 94 (479.24)

*Нармин Хайям кызы Алиева*
*Гянджинское Отделение НАНА*

# РОЛЬ ГЯНДЖИ В ДЕКОРАТИВНО-ПРИКЛАДНОМ ИСКУССТВЕ АЗЕРБАЙДЖАНА: В КОНТЕКСТЕ ХУДОЖЕСТВЕННОГО СТЕКЛА

*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа, художественное стекло, декоративно-прикладное искусство, археологические исследования, декоративные предметы

В статье рассматривается историческое развитие и культурное значение художественного стекла в Азербайджане, особенно в Гяндже. Археологические раскопки показывают, что начиная с IV по VII века в Гяндже, Мингечауре, Шемахе и других регионах изготавливались стеклянные сосуды, ювелирные изделия и зеркала высокого художественного уровня. С периода древней Кавказской Албании это ремесло получило широкое распространение, создавались не только функциональные, но и эстетически ценные изделия.

В производстве стекла использовались технологии выдувания и литья, изделия отличались разнообразием форм и цветов. Найденные бусины и браслеты демонстрируют творческий подход и техническое мастерство местных ремесленников.

В середине XX века на фабриках в Гяндже и Баку художниками были созданы новые образцы художественного стекла, что способствовало дальнейшему развитию этого направления. Художественное стекло занимает важное место в декоративно-прикладном искусстве Азербайджана и сохраняется до наших дней в ограниченном масштабе.

UDC 94 (479.24)

*Narmin Khayyam Aliyeva*
*Azerbaijan National Academy of Sciences-Ganja Branch*

THE ROLE OF GANJA IN THE DECORATIVE AND APPLIED ARTS OF AZERBAIJAN: IN THE CONTEXT OF ART GLASS ART

*SUMMARY*

*Keywords:* Ganja, art glass, decorative and applied arts, archaeological research, decorative objects

The article examines the historical development and cultural significance of art glass in Azerbaijan, particularly in Ganja. Archaeological excavations show that from IV to VII centuries, glassware, jewelry, and mirrors were produced at a high artistic level in Ganja, Mingachevir, Shamakhi, and other regions. Since the time of ancient Caucasian Albania, this craft had become widespread, producing not only functional items but also aesthetically rich examples.

Glass production involved both blowing and casting techniques, and the items were made in various colors and shapes. The discovered beads and bracelets demonstrate the creativity and technical skills of the artisans.

In the mid-20th century, new glass samples were created by artists at the Ganja and Baku factories, continuing the development of this field. Art glass holds an important place in Azerbaijan's decorative and applied arts and still survives today to some extent.

***Daxil oldu: 11.11.2025-ci il***